UOT 327; 930.22
DOI: https://doi.org/10.30546/25194011.2026.201.2.4.5006

# POSTSOVET MƏKANINDA SUVERENLİK MÜBAHİSƏLƏRİ VƏ AZƏRBAYCAN TƏCRÜBƏSİ

**NİGAR ZAHİD QIZI DÜNYAMALIYEVA**
*BDU-nun Diplomatiya və müasir interqasiya prosesləri kafedrası, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent*
*Akademik Zahid Xəlilov küçəsi 33, AZ1148*
*E-mail: nigar_d@hotmail.com*

**KƏRƏM CAHANGİR OĞLU MƏMMƏDOV**
*BDU-nun Beynəlxalq münasibətlər kafedrasının müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent*
*Akademik Zahid Xəlilov küçəsi 33, AZ1148*
*E-mail: kerem_mamedov@mail.ru*

## XÜLASƏ

Tədqiqatda postsovet məkanında suverenlik anlayışının transformasiyası və Azərbaycan Respublikasının bu kontekstdə formalaşmış təcrübəsi təhlil olunur. Araşdırmamız göstərir ki, 1991-ci ildən sonra yaranan yeni dövlətlər formal müstəqillik əldə etsələr də, onların faktiki suverenliyi xarici təsirlər, iqtisadi asılılıq və separatçılıq kimi amillərlə məhdudlaşmışdır. Bu şəraitdə Azərbaycan modeli öz ardıcıllığı, praqmatik diplomatiyası və güclü siyasi iradəsi ilə seçilir. 2020-ci ildə baş verən 44 günlük müharibə və 2023-cü ildə keçirilən lokal antiterror əməliyyatları nəticəsində ölkə ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmiş, beynəlxalq hüquq çərçivəsində yeni reallıq formalaşdırmışdır. Azərbaycanın təcrübəsi beynəlxalq vasitəçiliyə kor-koranə etimadın deyil, milli resurslara əsaslanan qərarvermənin uğurlu nümunəsidir. 8 avqust 2025-ci ildə ABŞ Prezidentinin vasitəçiliyi ilə Ermənistanla sülh sazişinin paraflanması regionda suverenlik anlayışına yeni prizmadan baxışı təmin etmişdir. Nəticə olaraq, Azərbaycan postsovet məkanında suverenliyini həm de-yure, həm də de-fakto bərpa edən ilk dövlət olaraq müasir beynəlxalq münasibətlərdə yeni model formalaşdırmışdır.

**Açar sözlər:** *suverenlik, postsovet məkanı, Azərbaycan, ərazi bütövlüyü, beynəlxalq münasibətlər.*

## Giriş

Suverenlik anlayışı siyasi elmlərdə hələ də aktuallığını qoruyur, çünki o, dövlətlərin beynəlxalq sistemdə varlığını və fəaliyyət azadlığını müəyyən edən əsas konseptual dayaqlardan biridir. Qloballaşma, beynəlxalq təşkilatların təsirinin artması, transmilli şirkətlərin və qlobal informasiya axınlarının güclənməsi suverenliyin klassik, mütləq və bölünməz xarakterini şübhə altına alıb. Bununla belə, son onilliklərdə baş verən hadisələr – Krımın ilhaqı, Ukrayna müharibəsi, Yaxın Şərqdəki münaqişələr və Afrikada çevrilişlər göstərir ki, suverenlik hələ də beynəlxalq münasibətlərin mərkəzi prinsipidir. Dövlətlər üçün suverenlik təkcə hüquqi status deyil, həm də öz ərazisi və vətəndaşları üzərində qərarvermə müstəqilliyi deməkdir. Buna görə də müasir siyasi nəzəriyyələrdə suverenlik həm normativ, həm də praktiki baxımdan müzakirə olunur: bir tərəfdən beynəlxalq inteqrasiyanın onu zəiflətməsi, digər tərəfdən isə milli dövlətlərin güclənməsi ilə yenidən aktuallaşması müşahidə edilir.

Bu baxımdan, mövzumuzun aktuallığı postsovet məkanında baş verən proseslərlə birbaşa əlaqəlidir. SSRİ-nin dağılmasından sonra yaranan dövlətlər formal müstəqillik qazansalar da, faktiki suverenliklərini qorumaqda ciddi problemlərlə üzləşdilər. Xarici təsirlər, separatçı hərəkatlar, regional güclərin rəqabəti və iqtisadi asılılıq bu dövlətlərin real suverenlik imkanlarını məhdudlaşdırdı. Bu fonda Azərbaycan nümunəsi xüsusilə diqqətəlayiqdir, çünki ölkə uzunmüddətli münaqişədən, beynəlxalq vasitəçiliyin uğursuzluğundan və təzyiqlərdən sonra öz suverenliyini hərbi, siyasi və diplomatik yolla tam bərpa etməyi bacardı. Postsovet məkanında davam edən suverenlik mübahisələri göstərir ki, bu anlayış yalnız nəzəri deyil, həm də reallıqda dövlətlərin taleyini müəyyən edən praktik məsələdir. Buna görə də suverenlik problemi bu gün həm beynəlxalq münasibətlər elminin, həm də regional siyasətin əsas tədqiqat istiqamətlərindən biri olaraq qalır.

## Postsovet məkanında suverenlik anlayışının transformasiyası

Bildiyimiz kimi, postsovet məkanında suverenlik anlayışının transformasiyası 1991-ci ildən sonra baş verən siyasi, iqtisadi və hüquqi dəyişikliklərin nəticəsində dərin şəkildə formalaşmış mürəkkəb bir prosesdir. SSRİ-nin dağılması ilə 15 yeni müstəqil dövlət meydana gəldi və onların hər biri beynəlxalq hüququn suverenlik prinsipinə əsaslanaraq müstəqilliyini elan etdi. Lakin bu suverenliyin faktiki məzmunu formal müstəqilliklə məhdudlaşmırdı; o, dövlətlərin iqtisadi asılılıq dərəcəsi, təhlükəsizlik təminatı və xarici siyasət yönümləri ilə sıx bağlı idi. Keçid dövründə bir çox dövlətlər mərkəzləşdirilmiş sovet idarəetmə sistemindən milli dövlət idarəetmə modelinə keçməkdə çətinlik çəkdilər. Bu səbəbdən suverenlik anlayışı il-

kin mərhələdə daha çox "formal siyasi müstəqillik" kimi qəbul olundu, real siyasi və iqtisadi suverenliyin təmin edilməsi isə uzunmüddətli struktur islahatlarını tələb etdi. 1990-cı illərin əvvəllərində postsovet dövlətləri üçün suverenlik həm ideoloji, həm də hüquqi baxımdan yenidən təyin olunmalı idi. SSRİ dövründə dövlətlərarası münasibətlər "mərkəzdən idarə olunan federativ struktur" üzərində qurulmuşdu, burada respublikaların beynəlxalq qərarvermə səlahiyyəti faktiki olaraq yox idi. Yeni dövrdə isə suverenlik milli identikliklə sıx əlaqələndirilərək dövlət legitimliyinin əsas elementi kimi ön plana çıxdı. Bu, xüsusilə etnik və dil müxtəlifliyi yüksək olan regionlarda suverenlik anlayışının milli kimliklə eyniləşdirilməsinə gətirib çıxardı. Lakin bu proses ziddiyyətli idi, çünki bir tərəfdən milli dövlətçiliyin qurulması prosesi güclənirdi, digər tərəfdən isə iqtisadi və təhlükəsizlik baxımından postsovet respublikaları Rusiya ilə qarşılıqlı asılı münasibətlərdə qalırdılar [6].

1990-cı illərin sonuna doğru "məhdud suverenlik" anlayışı postsovet məkanında nəzəri və praktik reallığa çevrildi. Xüsusilə MDB (Müstəqil Dövlətlər Birliyi) çərçivəsində yaradılan iqtisadi və hərbi mexanizmlər üzv dövlətlərin formal müstəqilliyinə baxmayaraq, Moskvanın təsirini qorumağa yönəlmişdi [7]. Bu mexanizmlər vasitəsilə Rusiya özünün "yaxın xaric" siyasətini formalaşdırdı və regiondakı dövlətlər üçün suverenlik məsələsini geosiyasi kontekstdə müəyyənləşdirdi. Bununla da suverenlik anlayışı yalnız beynəlxalq hüquqi status deyil, həm də siyasi balans məsələsinə çevrildi. Bir çox hallarda dövlətlərin suveren qərarvermə imkanları onların enerji, təhlükəsizlik və ticarət asılılığı ilə məhdudlaşdı.

2000-ci illərdə suverenlik anlayışı postsovet dövlətləri üçün artıq sadəcə müstəqillik məsələsi deyildi; bu, həm də qlobal inteqrasiya prosesləri ilə uzlaşma qabiliyyəti idi. Avropa İttifaqı, NATO və Avrasiya İqtisadi İttifaqı kimi qurumlarla əməkdaşlıq yeni suverenlik modelini formalaşdırmağa başladı. Bu modeldə dövlətlər öz müstəqilliklərini tam itirmədən beynəlxalq strukturlara inteqrasiya edir, müəyyən sahələrdə isə səlahiyyətlərini bölüşdürürdülər. Beləliklə, "funksional suverenlik" anlayışı meydana çıxdı; yəni dövlətlər müəyyən sahələrdə öz suverenliklərinin bir hissəsini beynəlxalq institutlara ötürməklə daha güclü təhlükəsizlik və iqtisadi imkanlar qazanmağa çalışdılar. Bu prosesdə bəzi dövlətlər Avropa yönümlü, bəziləri isə Rusiya yönümlü inteqrasiya kursu seçdi və bu, regionda siyasi xəttin qütbləşməsinə səbəb oldu [4]. 2010-cu illərdə isə Rusiya və Qərb arasında geosiyasi rəqabətin kəskinləşməsi postsovet məkanında suverenlik anlayışını yenidən mübahisə mövzusuna çevirdi. Xüsusilə Ukrayna, Gürcüstan və Moldova kimi dövlətlərin Qərblə yaxınlaşma cəhdləri Rusiyanın "arxa bağçası" üçün nəzərdə tutduğu suverenlik konsepsiyası ilə toqquşdu. Moskva bu dövlətlərin NATO və Aİ-yə inteqrasiya planlarını öz təhlükəsizlik zonası üçün təhdid kimi qəbul edir və bu, postsovet məkanında suverenliyin "qorunan sərhədlər" anlayışı ilə məhdudlaşdırılmasına gətirib çıxarırdı. Nəticədə suverenlik yalnız beynəlxalq hüquqla deyil, həm də güc siyasəti ilə müəyyənləşdirilməyə başladı. Bu dövrdən etibarən regionda "müstəqil, lakin asılı" dövlətlərin sayı artdı.

Rəqəmsal dövrün başlanması ilə suverenlik anlayışı daha da mürəkkəbləşdi. İnformasiya texnologiyalarının sürətli inkişafı, kibertəhlükələr və sosial şəbəkələrin siyasi təsiri postsovet məkanında yeni bir "rəqəmsal suverenlik" mübahisəsini ortaya çıxardı. Dövlətlər informasiya axınını nəzarətdə saxlamaq və öz informasiya məkanlarını qorumaq üçün qanunvericilik və texnoloji mexanizmlər tətbiq etməyə başladılar. Lakin bu, bəzən söz azadlığı və beynəlxalq məlumat mübadiləsi prinsipləri ilə ziddiyyət təşkil edirdi. Beləliklə, suverenlik artıq yalnız ərazi və hərbi sərhədlər üzərində deyil, həm də virtual mühitdə dövlətin özünüifadə imkanları üzərində müzakirə olunmağa başladı [5]. Nəticə etibarilə, postsovet məkanında suverenlik anlayışının transformasiyası həm tarixi, həm də struktur baxımından çoxsəviyyəli bir prosesdir. Bu anlayış SSRİ-nin dağılmasından sonrakı dövrdə formal hüquqi müstəqillikdən real siyasi, iqtisadi və informasiya müstəqilliyinə doğru təkamül keçirdi. Hər bir dövlət bu transformasiyanı fərqli siyasi model, iqtisadi imkan və xarici oriyentasiya ilə həyata keçirdi. Bu səbəbdən, postsovet məkanında suverenlik anlayışı monolit deyil, müxtəlif səviyyələrdə təzahür edən dinamik bir proses kimi qiymətləndirilməlidir.

**Azərbaycan Respublikasının suverenlik təcrübəsi postsovet məkanında nümunə kimi**

Azərbaycan Respublikasının suverenlik təcrübəsi postsovet məkanında özünəməxsus və çoxşaxəli proses kimi formalaşıb. 1991-ci ildə müstəqilliyin bərpasından sonra Azərbaycan həm siyasi, həm də iqtisadi baxımdan çoxsaylı çağırışlarla üzləşdi. SSRİ-nin dağılmasından sonra ölkə bir tərəfdən daxili siyasi qeyri-sabitlik və iqtisadi böhran şəraitində, digər tərəfdən isə Ermənistanla müharibə vəziyyətində idi. 1990-cı illərin əvvəlində Azərbaycanın beynəlxalq hüquqa əsaslanan suverenliyi formal səviyyədə təmin olunsa da, faktiki suverenlik Qarabağ bölgəsində pozulmuşdu. Ermənistanın hərbi təcavüzünün davam etdiyi bu dövrdə beynəlxalq vasitəçilər olan ATƏT-in Minsk Qrupu, BMT və digər qurumlar münaqişənin həllinə dair uzunmüddətli diplomatik təşəbbüslərlə çıxış etsələr də, nəticə əldə edilmədi. Bu, Azərbaycanın beynəlxalq vasitəçiliyə etimadının tədricən azalmasına

və dövlətin öz təhlükəsizlik strategiyasını müstəqil şəkildə formalaşdırmasına səbəb oldu. 2000-ci illərdə Azərbaycan dövlət quruculuğunun əsas mərhələsini keçərək iqtisadi sabitliyə və beynəlxalq arenada nüfuzun artmasına nail oldu. Enerji resurslarının istismarı və regional layihələrin, xüsusilə Bakı-Tbilisi-Ceyhan (BTC), Bakı-Tbilisi-Ərzurum (BTE) və Cənubi Qaz Dəhlizi layihələrinin reallaşdırılması ölkəyə həm iqtisadi, həm də siyasi müstəqillik gətirdi. Bu mərhələdə Azərbaycan suverenliyini yalnız ərazi bütövlüyü ilə deyil, həm də iqtisadi və diplomatik müstəvidə ifadə etməyə başladı. Ölkə balanslaşdırılmış xarici siyasət yürüdərək Qərb, Rusiya və regional qonşularla eyni anda praqmatik münasibətlər qurdu.

Bunun məntiqi nəticəsi olaraq, 2020-ci ildə baş verən 44 günlük ikinci Qarabağ müharibəsi əvvəlki vəziyyəti köklü şəkildə dəyişdirdi. 27 sentyabrda başlayan və 10 noyabr 2020-ci il bəyanatı ilə başa çatan hərbi əməliyyatlar nəticəsində Azərbaycan öz ərazi bütövlüyünün böyük hissəsini bərpa etdi. Bu, postsovet məkanında beynəlxalq vasitəçiliyin uğursuz olduğu halda, hərbi-siyasi yolla suverenliyin bərpasının ilk presedenti idi. Müharibə göstərdi ki, uzun illər beynəlxalq vasitəçilərin neytral və balanslı mövqe saxlaması əslində status-kvonu dondurmaq məqsədinə xidmət etmişdi. Azərbaycan isə bu vəziyyəti hərbi, diplomatik və informasiya müstəvilərində sinxron şəkildə dəyişdirməyi bacardı. Hərbi qələbədən sonra ölkə diplomatik müstəvidə də aktiv fəaliyyət göstərdi. Azərbaycan 2021-2023-cü illərdə beynəlxalq təşkilatlarda və qlobal media platformalarında ərazi bütövlüyünün bərpasını hüquqi və siyasi reallıq kimi tanıtmaq istiqamətində geniş təşəbbüslər irəli sürdü. Azərbaycanın mövqeyi BMT Baş Assambleyasında, Qoşulmama Hərəkatında və İslam Əməkdaşlıq Təşkilatında geniş dəstək qazandı [2]. 2023-cü ilin sentyabrında keçirilən lokal antiterror əməliyyatları nəticəsində Qarabağda separatçı qurumun tam ləğvi ilə ölkə suverenliyi bütün ərazilər üzərində bərpa olundu. Bu hadisə postsovet məkanında ilk dəfə olaraq bir dövlətin beynəlxalq hüquqa əsaslanaraq, öz ərazisində separatçılığı tam aradan qaldırması kimi tarixə düşdü.

2023-cü ilin əməliyyatları təkcə hərbi uğur deyil, həm də siyasi realizmin təntənəsi idi. Azərbaycan beynəlxalq reaksiyaları diqqətlə idarə etdi, əməliyyatların beynəlxalq hüququn 51-ci maddəsində göstərilən özünümüdafiə hüququna əsaslandığını vurğuladı. Qısa müddət ərzində separatçı rejim özünü buraxdı və bölgədə Azərbaycanın konstitusion quruluşu bərpa olundu. Bu, faktiki olaraq suverenliyin tam bərpası idi. Nəticədə Azərbaycan öz ərazi bütövlüyünə tam nəzarət edən, postsovet məkanında “de-yure” və “de-fakto” suverenliyi bərpa edən ilk dövlət statusunu qazandı.

Azərbaycanın suverenlik təcrübəsi beynəlxalq səviyyədə həm də diplomatik fəallıqla möhkəmləndirildi. 2024-cü ildə ölkə müxtəlif beynəlxalq platformalarda postmünaqişə reallıqlarını, sülh quruculuğu prosesini və bərpa proqramlarını təqdim etdi. Bu, Azərbaycanın hərbi qələbəni siyasi və diplomatik üstünlüyə çevirmə qabiliyyətini nümayiş etdirdi. Hətta Ermənistanın özü də 2024-2025-ci illərdə Azərbaycanın suverenliyini de-fakto tanımağa başladı. 8 avqust 2025-ci ildə ABŞ Prezidenti Donald Trampın vasitəçiliyi ilə Ermənistan və Azərbaycan arasında sülh sazişinin paraflanması region üçün dönüş nöqtəsinə çevrildi. Bu sənəd iki ölkə arasında düşmənçiliyin formal sonu və qarşılıqlı suverenliyin tanınması anlamına gəlirdi. Sülh sazişinin paraflanması Azərbaycanın beynəlxalq nüfuzunu yeni səviyyəyə qaldırdı. ABŞ və Avropa İttifaqı ölkələri Azərbaycanın sülh təşəbbüsünü regionda sabitliyin əsas faktoru kimi qiymətləndirdilər. Rusiya isə öz vasitəçilik rolunun zəifləməsini fakt kimi qəbul etdi. Bu hadisə Azərbaycan modelinin, yəni hərbi, iqtisadi və diplomatik gücün inteqrasiyasına əsaslanan suverenlik modelinin postsovet məkanında uğurlu presedent kimi tanınmasına gətirib çıxardı. Azərbaycan artıq yalnız öz suverenliyini bərpa edən deyil, həm də onu qoruma və möhkəmləndirmə bacarığını sübut edən dövlət kimi çıxış etdi.

Müqayisəli şəkildə baxsaq, Azərbaycan Gürcüstan, Ukrayna və Moldova kimi dövlətlərdən fərqli olaraq suverenlik məsələsində daha ardıcıl və praqmatik strategiya həyata keçirdi. Gürcüstan 2008-ci ildə Rusiya ilə müharibədən sonra ərazi bütövlüyünü bərpa edə bilmədi, Ukrayna isə 2014-cü ildən bəri davam edən münaqişələr nəticəsində ərazisinin bir hissəsini itirdi. Moldova isə Dnestryanı bölgədə faktiki nəzarətini hələ də bərpa edə bilməyib. Bu mənada, Azərbaycan postsovet məkanında tam suverenliyini bərpa etmiş yeganə dövlət olaraq fərqlənir. Azərbaycanın bu uğuru həm siyasi idarəçilik modelinin çevikliyini, həm də milli təhlükəsizlik konsepsiyasının effektivliyini nümayiş etdirdi. Dövlətin həm hərbi modernləşmə, həm də diplomatik balans siyasəti nəticəsində suverenlik anlayışı sadəcə hüquqi statusdan strateji reallığa çevrildi. İqtisadi müstəqillik, enerji təhlükəsizliyi və regional layihələr vasitəsilə əldə edilən iqtisadi üstünlüklər bu suverenliyin dayanıqlılığını təmin etdi.

Nəticə etibarilə, Azərbaycan Respublikasının suverenlik təcrübəsi postsovet məkanında yeni modelin formalaşmasına təkan verib. Bu model beynəlxalq vasitəçiliyə kor-koranə etimadın yerinə milli resurslara, balanslaşdırılmış diplomatiyaya və hərbi-siyasi realizmə əsaslanır. Azərbaycan suverenliyini yalnız bərpa etmədi, həm də onu regional sabitlik və əmək-

daşlıq faktoruna çevirdi. Bu, XXI əsrin ikinci onilliyində postsovet məkanında suverenlik anlayışının praktiki təcəssümü və gələcək üçün strateji nümunə kimi qəbul edilir.

Hazırda Rusiya Gürcüstana Abxaziya və Cənubi Osetiya ilə "federativ model" adı altında yeni konfederativ siyasi formula təklif edir ki, bu da əslində həmin bölgələrə "yüksək status" verilməsi konsepsiyasına əsaslanır. Moskva bu addımı regionda təsirini qorumaq və Qərbin Gürcüstan üzərindəki artan təsirinə qarşı siyasi manevr kimi istifadə edir [3; 8]. Gürcü cəmiyyətində bu təklifə münasibət ziddiyyətlidir: bir qrup siyasətçi bunu uzunmüddətli münaqişənin diplomatik həlli imkanı kimi dəyərləndirir, digərləri isə ölkənin suverenliyinə və ərazi bütövlüyünə təhlükə kimi görür. Separatçı rejimlər isə bu təşəbbüsü birmənalı şəkildə rədd edərək Gürcüstanla hər hansı siyasi birləşmə perspektivini inkar edirlər. Bu mənzərə fonunda Azərbaycan modeli ilə Gürcüstanın vəziyyəti kəskin şəkildə fərqlənir. Azərbaycanda 2023-cü ilin sentyabrında keçirilən antiterror əməliyyatlarından sonra separatçılıq anlayışına son qoyulub, dövlət başçısının dediyi kimi, "status" məsələsi artıq "gorbagor olub [1]". Bu ifadə təkcə siyasi reallığı deyil, həm də postsovet məkanında yeni mərhələnin – ərazi bütövlüyünün bərpası və dövlət suverenliyinin heç bir formada bölünməzliyinin rəmzinə çevrilib.

Bundan əlavə, Prezident İlham Əliyev bir neçə dəfə açıq şəkildə bəyan edib ki, Ukrayna heç bir halda ərazi itkisi ilə barışmamalı, beynəlxalq təzyiqlərə baxmayaraq rəsmi şəkildə bu reallığı qəbul etməməlidir. Cənab Prezident vurğulayıb ki, müvəqqəti atəşkəs problemi həll etmir, davamlı sülh olmalıdır [9]. O, Ukrayna rəhbərliyinə tövsiyə edib ki, bütün çətinliklərə, diplomatik təcrid cəhdlərinə və hərbi təzyiqlərə baxmayaraq inadkarlıq nümayiş etdirsinlər, çünki suverenlik və ərazi bütövlüyü heç bir siyasi kompromisə qurban verilə bilməz. Bu mövqe Azərbaycanın öz təcrübəsindən irəli gəlir, yəni uzun illər beynəlxalq vasitəçiliyə güvənməyin nəticə vermədiyi, lakin prinsipial və ardıcıl siyasətin sonunda tam suverenliyin bərpası ilə nəticələndiyi reallıqdan yaranıb. İlham Əliyevin bu mesajı təkcə Ukrayna üçün deyil, həm də beynəlxalq aləmdə suverenlik uğrunda mübarizə aparan bütün dövlətlər üçün praktiki dərs xarakteri daşıyır. Bu, Azərbaycanın artıq regional deyil, qlobal səviyyədə siyasi təcrübə ixrac edən bir dövlətə çevrildiyini göstərir.

## Nəticə

Tədqiqatımızın nəticəsi kimi deyə bilərik ki, postsovet məkanında suverenlik anlayışı yalnız dövlətlərin müstəqillik aktı ilə müəyyənləşmir, o, həm də real siyasi iradə, iqtisadi müstəqillik və milli təhlükəsizlik mexanizmləri ilə təmin olunur. 1990-cı illərdən etibarən regionda baş verən proseslər göstərdi ki, formal suverenlik beynəlxalq hüquqla təmin olunsa da, onun qorunması üçün strateji idarəçilik, güclü iqtisadi baza və balanslaşdırılmış diplomatiya zəruridir. Azərbaycan Respublikası bu mənada istisna deyil, lakin seçdiyi yol və nəticələri baxımından fərqli presedent formalaşdırıb. Ölkə beynəlxalq vasitəçiliyə kor-koranə etimaddan imtina edərək, öz milli resurslarına, hərbi modernləşməyə və praqmatik diplomatiyaya əsaslanan model yaratmışdır. 2020 və 2023-cü illərdəki hərbi-siyasi addımlar Azərbaycanın suverenliyini tam bərpa etməklə yanaşı, onu postsovet məkanında yeni siyasi davranış nümunəsinə çevirmişdir. Azərbaycan göstərdi ki, dövlətin suverenliyi yalnız hüquqi prinsiplərlə deyil, həm də iradə, ardıcıllıq və özünə güvən üzərində qurulmalıdır. Bu kontekstdə, Azərbaycan Respublikasının təcrübəsi postsovet regionunda dövlətçilik və müstəqillik anlayışına yeni prizmadan baxmağa imkan verir. Azərbaycan modeli göstərdi ki, suverenliyin qorunması beynəlxalq güc mərkəzlərinə tabeçiliklə deyil, çoxvektorlu diplomatiya və milli maraqlara əsaslanan siyasətlə mümkündür. Bu, həmçinin region dövlətləri üçün siyasi dərs xarakteri daşıyır: kompromisli suverenlik anlayışı uzunmüddətli sabitlik yaratmır. Azərbaycanın tam suverenlik bərpası, sülh sazişinin paraflanması və beynəlxalq hüquqla uyğun şəkildə hərəkət etməsi göstərdi ki, postsovet məkanında yeni mərhələ başlanır; bu mərhələdə dövlətlərin uğuru onların beynəlxalq təşkilatlara nə qədər inteqrasiya etməsi ilə deyil, öz milli suverenliyini necə qoruyub və praktik gücə çevirməsi ilə ölçülür.

## ƏDƏBİYYAT SİYAHISI


*1. Nə oldu bəs status? Cəhənnəmə getdi status, gora getdi status – İlham Əliyev. pravda.az. 10 Noyabr 2020. URL: https://pravda.az/news/28768*

*2. Алиев, Н. Восстановление территориальной целостности и суверенитета Азербайджана: Правовые аспекты. Баку: Elm və təhsil, 2023. 287 с.*

*3. Atasuntsev, A. Is Georgia Headed for Another Revolution? Carnegie. September 25, 2024. URL: https://carnegieendowment.org/russia-eurasia/politika/2024/09/georgia-elections-opposition?lang=en*

*4. Florea, A., & Huang, R. Functional sovereignty in contested territories. International Studies Quarterly, 2025, 69(4). https://doi.org/10.1093/isq/sqaf069*

*5. Glasze, G., Cattaruzza, A. & others. Contested Spatialities of Digital Sovereignty. Geopolitics, 2022, 28(2), 919–958.*

*6. Korowicz, M.S. Soviet Conception of Sovereignty and International Law. In: Introduction to Inter-*

*national Law. Springer, Dordrecht, 1959. https://doi.org/10.1007/978-94-011-9226-2_5*

*7. Panahi L.K.S. Historical Comparison of Sovereignty in International Law. Russian Law Journal, 2021, 9 (4), 128-157.*

*8. Phantom Promise: The Ruling Party's "Reunification" Bluff Splutters. civil.ge. 28.05.2024. URL: https://civil.ge/archives/609760*

*9. Rzayev, T. İlham Əliyev dünyanı xəbərdar etdi – Daha böyük müharibə başlaya bilər. news24. 11 Aprel 2025. URL: https://news24.az/siyaset/eliyev-dunyani-xeberdar-etdi-daha-boyuk-muharibe-bashlaya-biler.*

## Дискуссии о суверенитете в постсоветском пространстве и опыт Азербайджана

**Нигяр Захид Дунямалиева**
***Доктор философии по политическим наукам, доцент. Кафедра дипломатии и современных интеграционных процессов, БГУ***

**Керем Джахангир Мамедов**
***Доктор философии по политическим наукам, доцент. Заведующий кафедрой международных отношений, БГУ***

**РЕЗЮМЕ**

В статье анализируется трансформация понятия суверенитета в постсоветском пространстве и опыт Азербайджанской Республики в этом контексте. Исследование показывает, что после 1991 года новые государства, хотя и получили формальную независимость, их фактический суверенитет оставался ограниченным внешним влиянием, экономической зависимостью и сепаратизмом. В этих условиях азербайджанская модель отличается последовательностью, прагматичной дипломатией и сильной политической волей. В результате 44-дневной войны 2020 года и локальной антитеррористической операции 2023 года страна полностью восстановила свою территориальную целостность и суверенитет, сформировав новую реальность в рамках международного права. Опыт Азербайджана демонстрирует успешность решений, основанных не на слепом доверии международному посредничеству, а на использовании национальных ресурсов. Подписание 8 августа 2025 года мирного соглашения с Арменией при посредничестве президента США обеспечило новый взгляд на понятие суверенитета в регионе. Таким образом, Азербайджан стал первым государством постсоветского пространства, которое восстановило свой суверенитет как de jure, так и de facto, сформировав новую модель в современных международных отношениях.

**Ключевые слова:** *суверенитет, постсоветское пространство, Азербайджан, территориальная целостность, международные отношения.*

## Sovereignty Debates in the Post-Soviet Space and the Experience of Azerbaijan

**Nigar Zahid Dunyamaliyeva**
***PhD in Political Science, Associate Professor. Department of Diplomacy and Modern Integration Processes, BSU***

**Kerem Jahangir Mammadov**
***PhD in Political Science, Associate Professor. Head of the Department of International Relations, BSU***

**SUMMARY**

The research analyzes the transformation of the concept of sovereignty in the post-Soviet space and the experience of the Republic of Azerbaijan within this context. The study demonstrates that although the newly independent states achieved formal independence after 1991, their actual sovereignty remained constrained by external influence, economic dependency, and separatist movements. Under these circumstances, the Azerbaijani model stands out for its consistency, pragmatic diplomacy, and strong political will. As a result of the 44-day war in 2020 and the local anti-terrorist operation in 2023, Azerbaijan fully restored its territorial integrity and sovereignty, establishing a new reality within the framework of international law. The Azerbaijani experience proves the effectiveness of decision-making based on national resources rather than blind reliance on international mediation. The peace agreement initialed with Armenia on August 8, 2025, under the mediation of the U.S. President, provided a new perspective on sovereignty in the region. Consequently, Azerbaijan became the first post-Soviet state to restore its sovereignty both de jure and de facto, shaping a new model in contemporary international relations.

**Keywords:** *sovereignty, post-Soviet space, Azerbaijan, territorial integrity, international relations.*

*Rəyçi: Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Əlimusa İbrahimov*
*Məqalə redaksiyaya daxil olub: 09.02.2026*
*Çapa qəbul olunub: 23.02.2026*

*The date of the admission of the article to the editorial office: 09.02.2026*
*Accepted for publication: 23.02.2026*